www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — № -12 (1838) 30 iyun 2026-cı il



# Data-analitika və Süni İntellekt Laboratoriyası fəaliyyətə başlayıb

Rektor, professor Gəray Gəraybəyli: Süni intellekt müasir təbabətdə əsas transformasiyaedici amillərdən birinə çevrilib

səh. 2

## Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd edilib

səh. 2

## Universitetimiz Qlobal Dayanıqlı İnkişaf Konqresində təmsil olunub

səh. 5

## Hazırlıq kursunda yeni fənn tədris ediləcək

səh. 4



## “ATUREK 14”-ün qalibləri mükafatlandırılıb

Rektor gələcəyin alim və mütəxəssislərinə yeni elmi zirvələr arzulayıb

səh. 2

## ATU "Times Higher Education" reytinqində ciddi irəliləyiş əldə edib

*Universitetimiz ötən ilki nəticəni üstələyərək, 401-600-cü yerlər sırasına yüksəlib*

səh. 5

## “Xocalı harayı” kitabının təqdimatı keçirilib

*Professor Mübariz Allahverdiyevin təkcə bacarıqlı pedaqoq deyil, həm də zəngin yaradıcılıq irsinə malik ziyalı olduğu vurğulanıb*

səh. 4



## Xarkov Milli Tibb Universitetinin nümayəndə heyəti qonağımız olub

Rektorla görüşdə əməkdaşlığın daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb

səh. 3

# Tibb İşçilərinin Peşə Bayramı Günü qeyd edilib



İyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Ümummilli Lider Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamı ilə təsis edilmiş bu əlamətdar gün münasibətilə Səhiyyə Nazirliyi tərəfindən silsilə tədbirlər təşkil edilib.

Peşə bayramı münasibətilə səhiyyə naziri Teymur Musayev, nazirliyin struktur bölmələrinin və tabeli qurumlarının rəhbərləri, o cümlədən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Fəxri xiyabanı ziyarət ediblər. Ziyarət zamanı Ulu Öndərin əziz xatirəsi ehtiramla yad olunub, məzarı önünə gül dəstələri qoyulub. Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva, tanınmış dövlət və elm xadimi Əziz Əliyev, eləcə də elm xadimi Tamerlan Əliyevin məzarları ziyarət edilərək, xatirələri ehtiramla anılıb.

Daha sonra Səhiyyə Nazirliyinin kollektivi Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyub. Anım tədbirləri çərçivəsində xalqımızın milli-mənəvi dəyərləri, dövlətçilik ənənələri və səhiyyə sahəsinin inkişafında mühüm xidmətləri olmuş şəxsiyyətlərin xatirəsinə dərin ehtiram ifadə olunub.

# “ATUREK 14”-ün qalibləri mükafatlandırılıb

## Rektor gələcəyin alim və mütəxəssislərinə yeni elmi zirvələr arzulayıb



Rezident və magistrantların “ATUREK 14 - Yüksəlişə doğru” adlı elmi-praktik konfransının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimin 17 iyun - Tibb İşçilərinin Peşə Bayramı Gününə təsadüf etməsinin ikiqat sevinc hissi yaşatdığını söyləyən rektor, professor Gəray Gəraybəyli, tədbir iştirakçılarının timsalında bütün tibb işçilərini təbrik etdiyini diqqətə çatdırıb. ATU-da ənənəvi olaraq keçirilən və bu il də Ümummilli Lider Heydər Əliyevin 103 illiyinə həsr olunmuş elmi-praktik konfransın əhəmiyyətindən söz açan rektor, bu qəbildən olan tədbirlərin gənc tədqiqatçıların elmi potensialının inkişafına yönəldiyini, bilik və təcrübə mübadiləsi, elmi araşdırma və klinik təcrübələrin müzakirəsi baxımından əhəmiyyətli platforma olduğunu deyib.

Professor G.Gəraybəyli “ATUREK”-in akademik bacarıqlar, innovativ düşüncə və tədqiqat mədəniyyətinin formalaşmasına ciddi təkan verdiyini, universitet divarları arasında qazanılan fundamental bilik, dərin tədqiqat və praktik vərdişlərin gələcək peşəkar fəaliyyət üçün möhkəm təməl yaratdığını vurğulayıb.

Mərasimdə “ATUREK 14”-də 240-dan artıq rezident və magistrantın elmi məruzəsinin dinlənildiyi, 140 ekspert tərəfindən aparılan qiymətləndirmə əsasında “Ən yaxşı çıxış” nominasiyası üzrə I, II və III yer olmaqla qaliblərin müəyyənləşdirildiyi bildirilib.

Daha sonra ATU və digər klinik bazalardan uğurlu nəticələr göstərərək qalib adını qazanan 20 rezident və magistranta diplomlar təqdim edilib.

Rektor şərəfli karyeralarının hələ başlanğıcında olan qaliblərə gələcəyin alim və mütəxəssisləri olaraq yeni elmi zirvələr, yüksək intellektual potensial, tükənməz araşdırma həvəsi, elmi və praktik fəaliyyətlərində uğurlar arzulayıb.

# Rektor yay imtahan sessiyasının gedişi ilə tanış olub



Universitetimizin rektoru, professor Gəray Gəraybəyli 2025-2026-cı tədris ilinin yaz semestrinin yay imtahan sessiyasının gedişi ilə tanış olub.

Rektor əvvəlcə Stomatologiya fakültəsinin buraxılış kursu tələbələri üçün Tədris Stomatoloji Klinikanın Tədris Mərkəzində “Uşaq stomatologiyası” fənni üzrə klinik bacarıqların qiymətləndirilməsi imtahanını izləyib.

Tələbələrin nəzəri bilikləri və praktik vərdişlərinin qiymətləndirilməsi mərhələləri ilə yaxından tanış olan professor Gəray Gəraybəyli, imtahanın təşkili və keçirilməsi barədə tələbələrin fikirlərini də dinləyib.

Daha sonra rektor universitetin 5 saylı tədris korpusunda yerləşən imtahan zalına baş çəkərək müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələr üçün test üsulu ilə təşkil olunmuş imtahanların gedişini müşahidə edib.

O, imtahan prosesinin şəffaf, obyektiv və mövcud normativ tələblərə uyğun şəkildə təşkil olunduğunu bildirərək, tapşırıq və tövsiyələrini verib.



**Universitetimizdə Data-analitika və Süni İntellekt Laboratoriyasının açılış mərasimi keçirilib. Mərasimdə rektor, professor Gəray Gəraybəyli, səhiyyə nazirinin müşaviri Rüfət Hacıəlibəyov, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev, Səhiyyə Nazirliyi Rəqəmsal Səhiyyə Mərkəzinin baş direktoru Cəbrayıl Əsəd-zadə, ATU-nun İctimai Nəzarət və Məsləhət Şurasının sədri, Milli Məclisin deputatı İlham Məmmədov, universitetin professor-müəllim heyəti və digər mötəbər qonaqlar iştirak ediblər.**

# Data-analitika və Süni İntellekt Laboratoriyası fəaliyyətə başlayıb

## Rektor, professor Gəray Gəraybəyli: Süni intellekt müasir təbabətdə əsas transformasiyaedici amillərdən birinə çevrilib



Açılışdan əvvəl qonaqlar “Nar dənəsi datanın, nar isə biliyin simvolu” mənasında, hərəsi bir datanı ifadə edən nar toxumlarını torpağa əkiblər.

Daha sonra çıxışına qonaqları səmimi salamlamaqla başlayan rektor Gəray Gəraybəyli qlobal dünyada süni intellekt (Sİ) texnologiyalarının sürətlə bütün sahələrə nüfuz etdiyini, süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqinin getdikcə aktuallaşdığını, eyni zamanda bütün istiqamətlərdə olduğu kimi, müasir təbabətdə də artıq əsas transformasiyaedici amillərdən birinə çevrildiyini bildirib.

Rektor dünya miqyasında gedən inkişaf tendensiyalarına uyğun olaraq, dövlətlərin qlobal rəqabət mühitində üstünlüklər əldə etməsinə birbaşa təkan verən süni intellekt ekosisteminin ölkəmizdə də inkişafı və gücləndirilməsinin dövlət siyasətinin prioritet xətlərindən biri kimi önə çıxdığını vurğulayıb. Məhz bu aspektləri əsas tutaraq, ali tibb təhsili və elmi araşdırmalar mühitində süni intellekt yönümlü laboratoriyanın yaradılması da mövcud dövlət strateji xəttinin əsas prinsiplərinə dəstək verir.

Ölkədə süni intellektlə bağlı mövcud çağırışlar və qarşıya qoyulan hədəflərdən söz açan səhiyyə nazirinin müşaviri R.Hacıəlibəyov xüsusilə səhiyyə sistemində bu istiqamətdə atılan mühüm addımlar, həyata keçirilən layihələr haqda ətraflı məlumat verib. “2024-2028-ci illər üçün rəqəmsal səhiyyə üzrə Milli Strategiya” ilə müəyyənləşən vəzifələri xatırladan R.Hacıəlibəyov bu sahədə vahid ekosistemin qurulması, səhiyyə sistemində proseslərin rəqəmsallaşdırılması, rəqəmsal idarəetmənin təkmilləşdirilməsi və s. kimi istiqamətlər üzrə konkret və mühüm layihələrin icrasını diqqətə çatdırıb. O, xüsusən Səhiyyə Nazirliyi tərəfindən yaxın günlərdə təqdim olunan, vətəndaşların sağlamlıq məlumatlarının beynəlxalq standartlara uyğun şəkildə toplanması və fasiləsiz mübadiləsini təmin edən “Tibbi Rəqəmsal Əkiz Sistemi”nin Azərbaycanı Qafqaz və Mərkəzi Asiya regionunda rəqəmsal səhiyyə sahəsində lider mövqeyə yüksəltdiyini nəzərə çatdırıb.

Akademik R.Əliquliyev də çıxışında süni intellekti yalnız texnoloji yenilik deyil, həm də iqtisadi, hərbi və siyasi üstünlüyü müəyyən edən, müasir dövrdə artıq qlobal güc balansını dəyişən başlıca amil kimi dəyərləndirib. Bu transformasiyanın dövlətlər qarşısında mühüm vəzifələr müəyyənləşdirdiyini bildirən akademik, Azərbaycanda da bu sahədə son illərdə atılan addımlar, xüsusən Sİ ekosisteminin formalaşdırılması, bu sistemlərin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyən edilməsi və inkişafının xüsusi strateji əhəmiyyətə malik olduğunu vurğulayıb. O, rəqəmsal dövlət modelinin texnoloji, data və şəbəkə suverenliyi kimi fundamental arxitektur prinsiplərə əsaslanmasının vacibliyini diqqətə çatdıraraq, bu istiqamətdə dövlət idarəçiliyinin bütün səviyyələrində koordinasiyalı fəaliyyətin önəmini qeyd edib.

Deputat İ.Məmmədov da ölkəmizdə texnoloji yenilik və tərəqqinin insan amilinə xidmət etməsinin dövlət siyasətinin əsas prinsiplərindən biri olduğunu söyləyib. Azərbaycanda innovativ texnologiyaların və süni intellektin tətbiqinin 2025-2028-ci illəri əhatə edən Dövlət Strategiyası çərçivəsində genişləndiyini deyən millət vəkili “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı”nın qəbulunu, eyni zamanda rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradıldığını xatırladıb.

Daha sonra Elmi işlər üzrə prorektor Məlahət Sultan Data-analitika və Süni İntellekt Laboratoriyasının məqsədi, əhatə dairəsi, vacibliyi, həmçinin mərkəzin əsas vəzifələri haqda təqdimatla çıxış edib. Qonaqlar laboratoriyaya baxış keçiriblər. Tibbi və bioloji fizika kafedrasının müdiri, sözügedən laboratoriyanın rəhbəri İsmayıl Qafarov ətraflı məlumat verib.

Bildirilib ki, laboratoriyanın yaradılması elmi fəaliyyətin keyfiyyətinin artırılması, innovativ yanaşmaların tətbiqi və universitetdaxili elmi potensialın birləşdirilməsi, eyni zamanda ATU-da elmi-tədqiqat və tədris fəaliyyətinin müasir tələblərə uyğun şəkildə inkişaf etdirilməsi, tibdə rəqəmsallaşma proseslərinin elmi əsaslarla dəstəklənməsi və innovativ yanaşmaların universitet mühitinə sistemli şəkildə inteqrasiyası zərurətindən irəli gəlib.



Eləcə də laboratoriyanın fəaliyyəti universitetin uzunmüddətli inkişaf strategiyasına, elmi fəaliyyətin beynəlxalq standartlara uyğunlaşdırılması və innovasiya yönümlü tədqiqat mühitinin formalaşdırılmasına xidmət edir.

Laboratoriyanın fəaliyyətində maşın öyrənməsi, dərin öyrənmə, biostatistika və bioinformatika metodlarının tətbiqi nəzərdə tutulur və bu metodların klinik məlumatlar, tibbi görüntülər və biomolekulyar verilənlər üzərində tətbiqi əsas istiqamət kimi müəyyənləşdirilir. Elmi tədqiqatlar həm fundamental, həm də tətbiqi xarakter daşıyacaq, əldə olunan nəticələrin tibbi praktikada istifadə imkanları prioritet olaraq qiymətləndiriləcək.



# Xarkov Milli Tibb Universitetinin nümayəndə heyəti qonağımız olub



**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Ukrayna Respublikasının Xarkov Milli Tibb Universitetinin (XMTU) nümayəndə heyətini qəbul edib.**

Görüş zamanı rektor G.Gəraybəyli tibb sahəsində Ukraynanın bir çox ali təhsil müəssisələri ilə qurulan sıx əlaqələrə toxunub, universitetlər arasında bu münasibətləri tənzimləyən qarşılıqlı əməkdaşlıq memorandumlarını xatırladıb. Rektor bu istiqamətdə institusional tərəfdaşlıq sazişlərinin iki ölkənin səhiyyə nazirlikləri səviyyəsində də dəstəkləndiyini, səhiyyə və tibb elmi sahəsində münasibətlərin genişləndirilməsinə və yeni müstəvilərdə inkişaf etdirilməsinə qarşılıqlı marağın olduğunu bir daha nəzərə çatdırıb.

XMTU ilə tələbə və mütəxəssis mübadiləsi, birgə elmi tədqiqatların yerinə yetirilməsi kimi müxtəlif istiqamətləri ehtiva edən memorandum əsasında işlərin uğurla davam etdirildiyini deyən G.Gəraybəyli, bu səfərin də iki ali təhsil müəssisəsi arasında tədris və elmi-tədqiqat istiqamətlərində əməkdaşlığın inkişafına, həmçinin beynəlxalq əlaqələrin gücləndirilməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

Xarkov universitetinin rektoru, professor Valeri Myasoyedovun səmimi salamlarını çatdıran XMTU-nun Tədris və elmi işlər üzrə prorektoru, professor Oksana Nakoneçna ATU ilə əlaqələrin genişləndirilməsindən məmnun olduqlarını ifadə edib. Səfərin də bu əməkdaşlıq çərçivəsində təşkil olunduğunu vurğulayan prorektor əlavə edib ki, məqsəd pediatrik onkohematologiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, akademik heyət və doktorantlar üçün mühazirələrin təşkili, diaqnostika və müalicə istiqamətində birgə elmi layihələrin hazırlanmasıdır.

Görüşdə bir çox istiqamətlər, o cümlədən ali təhsil müəssisələrinin Tələbə Elmi cəmiyyətləri (TEC) arasında əməkdaşlıqların qurulması, maraq doğuran sahələr üzrə TEC-lərin birgə tədqiqatlar aparması, ümumilikdə elmi fəaliyyətin təşkili, tələbə startapları və s. kimi təkliflərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

XMTU-nun nümayəndə heyətinə Klinikadan əvvəl və klinik tədqiqatlar üzrə Elmi-Praktik Mərkəzin direktoru, Pediatriya kafedrasının müdiri, professor Nataliya Makieyeva, həmçinin Radiologiya kafedrasının doktorantı Roman Abdullayev də daxildir.

Qeyd edək ki, səfər çərçivəsində qonaqlar ATU-nun klinik bazaları ilə tanış olub, müvafiq ixtisas sahələri üzrə görüş və müzakirələr keçiriblər.

Onlar əvvəlcə Elmi Araşdırmalar Mərkəzinin Elektron mikroskopiya şöbəsində olublar. Şöbənin müdiri, dosent Fuad Rzayev qonaqlara elektron mikroskop vasitəsilə aparılan elmi-tədqiqat işləri barədə geniş məlumat verib.

Sonra qonaqlar universitetin İnsan anatomiyası kafedrasının Anatomik tədris muzeyini ziyarət ediblər. Yalnız elmi-tədris deyil, eyni zamanda elmi-maarifləndirici məqsəd də daşıyan muzeydə saxlanılan nadir eksponatlarla tanışlıq onlarda böyük maraq doğurub.

XMTU nümayəndələri Tədris Stomatologiya Klinikasına da baş çəkiblər. Direktor İmran Ağayev klinika və kafedralarda dərslərin gedişi haqda qonaqlara ətraflı məlumat verib.

Tədris Cərrahiyyə Klinikasında isə elmi seminar təşkil edilib. Seminarı Elmi Tədqiqatların İdarə Olunması Departamentin müdiri, professor Eldar Qarayev açaraq qonaqların universitetimizin klinik bazaları, kafedraları ilə tanışlığının davam etdiyini, müxtəlif ixtisas sahələri üzrə müzakirələrin aparıldığını deyib.

Prorektor, professor Oksana Nakoneçna klinikanın əməkdaşları və rezidentləri üçün mühazirə oxuyub. O, təmsil etdiyi universitetin tarixi inkişaf yolundan söhbət açıb, hazırkı fəaliyyət sahələri haqqında ətraflı məlumat verib. Ağır müharibə şəraitində çalışdıqlarını diqqətə çatdıraraq, məhz bu nöqteyi-nəzərdən hərbi tibb sahəsinin daha çox inkişaf etdiyini vurğulayıb.

Qonaqlar daha sonra Tədris Cərrahiyyə və Tədris Terapevtik klinikaları ilə yaxından tanış olublar. Nümayəndə heyəti TCK-nın direktoru, dosent Əsədulla Sultanov və TTK-nın direktoru, professor Vəsadət Əzizovla görüşüb. Görüşlərdə klinik fəaliyyətlə tanışlıq, tibbi təcrübə mübadiləsi, səhiyyə sahəsində əməkdaşlıq imkanları və gələcək inkişaf perspektivləri müzakirə olunub.





## Fuad İslamzadə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib



**Azərbaycan Respublikasının Prezidenti tərəfindən səhiyyə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilən şəxslər arasında Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrasının dosenti, "Azərbaycan Tibb Jurnalı"nın baş redaktor müavini Fuad İslamzadə də yer alıb.**

Prezidentin müvafiq sərəncamına əsasən, Fuad İslamzadə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Fuad İslamzadə yarım əsrə yaxın müddətdə səhiyyə və tibb elmi sahəsində fəaliyyət göstərərək elmi tədqiqatların inkişafına, yüksəkixtisaslı kadrların hazırlanmasına və ali tibb təhsilinin təkmilləşdirilməsinə mühüm töhfələr verib. Onun elmi-pedaqoji fəaliyyəti həm universitet, həm də ölkənin səhiyyə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Rektor, professor Gəray Gəraybəyli başda olmaqla, Azərbaycan Tibb Universitetinin kollektivi Fuad İslamzadəni yüksək dövlət mükafatına layiq görülməsi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı və gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayır.

# ATU Türkiyənin Acıbadem Klinikası ilə əməkdaşlığa başlayır

## İmzalanmış memorandumun qarşılıqlı fayda verəcəyinə əminlik ifadə olunub



**Rektor, professor Gəray Gəraybəyli Türkiyənin Acıbadem Klinikasının nümayəndə heyətini qəbul edib.**

Acıbadem Səhiyyə Qrupunun beynəlxalq biznesin inkişafı direktoru İlyas Benvenistenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə rektor ali tibb təhsilində beynəlxalq əməkdaşlığın strateji aspektləri, həmçinin müasir dövrdə bu əlaqələrin səhiyyə sisteminin inkişafında oynadığı mühüm roldan söz açıb.

Qloballaşma, tibb elminin sürətli inkişafı və səhiyyə problemlərinin beynəlxalq xarakter alması kimi amillərin universitetlər arasında münasibətlərin gücləndirilməsini zərurətə çevirdiyini vurğulayan rektor, ATU-nun bu istiqamətdə təkcə Türkiyənin 40-a yaxın ali təhsil müəssisəsi ilə əməkdaşlıq qurduğunu diqqətə çatdırıb.

Bu münasibətlərin gələcək tibb mütəxəssislərinin daha keyfiyyətli hazırlanması, elmi fəaliyyətin genişləndirilməsi və inkişafyönümlü təcrübələrin paylaşılmasına şərait yaratdığını deyən Gəray Gəraybəyli, beynəlxalq tərəfdaşlıqda elmi-tədqiqat potensialının gücləndirilməsi, akademik mobilliyin inkişafı, virtual simulyasiya platformalarına imkan verən innovativ istiqamətlərin ali tibb təhsilinə inteqrasiyası kimi bir çox mühüm sahələrə diqqət yetirildiyini bildirib.

Bu baxımdan, Acıbadem Klinikası ilə də əməkdaşlığın maraq doğurduğunu bildirən ATU rəhbəri qurulacaq əlaqələrin qarşılıqlı fayda verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Tibb Universiteti ilə yaxın əməkdaşlığa göstərilən maraqdan söz açan İlyas Benveniste də təmsil etdiyi qurumun strateji tərəfdaşlıqların formalaşdırılmasına xüsusi diqqət göstərdiyini bildirib. Bu əməkdaşlıqların təhsil, elm və klinik fəaliyyət istiqamətlərində əlaqələrin güclənməsinə töhfə verdiyini deyən direktor xüsusən xarici klinikalarda və universitetlərdə keçirilən təcrübənin gələcək həkimlərin fərqli səhiyyə sistemləri ilə tanışlığına, yeni klinik yanaşmaları öyrənmələrinə və peşəkar bacarıqlarını artırmalarına kömək etdiyini diqqətə çatdırıb.

Qarşılıqlı maraq doğuran istiqamətlər üzrə müzakirələrdən sonra Acıbadem Klinikası ilə Azərbaycan Tibb Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandum birgə elmi tədqiqatların aparılması, təcrübə mübadiləsinin təşkili, müasir tədris metodlarının tətbiqi innovativ texnologiyaların öyrənilməsi və s. sahələr üzrə əməkdaşlığı ehtiva edir.

# Yeni tədris proqramlarının növbəti müzakirəsi keçirilib

## Müasir çağırışlar yeni ixtisasların yaradılmasını zəruri edir

**Elm və Təhsil Nazirliyi tərəfindən ali təhsil proqramlarının hazırlanması məqsədilə yaradılan Komissiyada "Əsas (baza ali) tibb təhsili səviyyəsi və Səhiyyə ixtisasları qrupu" üzrə İşçi Qrupun növbəti iclası keçirilib.**

İşçi Qrupun həmsədri, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru İradə Axundovanın rəhbərliyi ilə baş tutan görüşdə komissiya üzvləri, ATU əməkdaşları, həmçinin 1 nömrəli Bakı Tibb və 2 nömrəli Bakı Baza Tibb kolleclərinin nümayəndələri iştirak ediblər.

Tədris Departamentinin rəhbəri Kamandar Yaqubov tibb ixtisasları üzrə yeni tədris proqramları ilə bağlı ilkin müzakirələrdən sonra əldə olunmuş rəy və təkliflərin qiymətləndirildiyini, əmək bazarının tələblərinə uyğun, müasir bilik və bacarıqlar əsas götürülməklə, tələbə yönümlü tədris proqramlarına üstünlük verildiyini diqqətə çatdırıb.

İradə Axundova müasir dövrdə tibbin qarşılaşdığı yeni çağırışlar əsasında ənənəvi ixtisaslarla yanaşı, yeni ixtisasların yaradılması və inkişaf etdirilməsi zərurətindən söz açıb. Bu prosesin həm səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasına, həm də cəmiyyətin dəyişən ehtiyaclarına daha effektiv cavab verməyə imkan yaratdığını qeyd edən həmsədr, yeni ixtisasların klinikalara sıx bağlı istiqamətlər olmasını nəzərə almaqla, müvafiq addımlar atılmasını tövsiyə edib.

Daha sonra 1 nömrəli Bakı Tibb Kollecinin direktoru Nailə Əliyeva və 2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva təqdim etdikləri tədris proqramlarının hazırlanmasında beynəlxalq təcrübəyə əsaslanıldığını, xüsusən kadrların praktik bacarıqlarının gücləndirilməsi ilə bağlı müvafiq işlərin genişləndirilməsinə ehtiyac olduğunu vurğulayıblar.

Tədris proqramlarının təkmilləşdirilməsi ilə bağlı fikirlərini bölüşən II Müalicə-profilaktika fakültəsinin dekanı İsrail Məhərrəmbəyli, tibb bacı və qardaşları hazırlığının təkmilləşdirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Geniş müzakirələrdən sonra görüşdə səsləndirilən müxtəlif rəy, fikir və təkliflərin ümumiləşdiriləcək, yaxın günlərdə yekun qərar veriləcəyi bildirilib.

# Akademik Cəlil Hüseynovun ailə üzvləri universitetimizdə olub



Azərbaycan patologiya elminin banilərindən olan akademik Cəlil Hüseynovun ailə üzvləri Patologiya kafedrasında olublar. Kafedranın müdiri, professor Ədalət Həsənovun dəvəti ilə baş tutan görüşdə akademikin nəvəsi Elmira Nəcəfova və nəticəsi Tahirə Nəcəfova iştirak ediblər.

Ə.Həsənov kafedranın yaranma tarixi, inkişaf yolu və akademik C.Hüseynovun patologiya elminin inkişafındakı müstəsna xidmətləri barədə fikirlərini diqqətə çatdırıb. Akademikin Azərbaycan tibb elminin inkişafındakı xidmətləri, onun elmi irsinin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsinin əhəmiyyəti vurğulanıb.

Qonaqlar akademikin öz əlləri ilə hazırladığı və hazırda Patologiya Muzeyində mühafizə olunan unikal preparatlarla da tanış olublar.

Daha sonra babası ilə bağlı xatirələrini paylaşan E.Nəcəfova göstərilən diqqət və səmimi qəbula görə minnətdarlığını ifadə edib.

# Hazırlıq kursunda yeni fənn tədris ediləcək



İnsan anatomiyası və tibbi terminologiya kafedrasında növbəti tədris ilindən hazırlıq kursunun dinləyicilərinə "Tibbi biliklərin əsasları" fənninin tədris ediləcəyinə dair müzakirələr aparılıb.

Kafedranın müdiri, professor Nəriman Mövsümov bildirib ki, müxtəlif ölkələrin universitetlərində hazırlıq dövründə "Anatomiya və tibbi terminologiya" fənni ayrıca tədris olunur: "Bu isə ilk növbədə tələbələrin terminologiyanı beynəlxalq səviyyədə mənimsəməsinə şərait yaradır. Bu nöqteyi-nəzərdən yeni fənnin məhz bizim kafedramızda tədrisini həm yüksək etimad, həm də böyük məsuliyyət kimi qəbul edirik".

Əcnəbi təhsilalanlarla iş üzrə dekan Natiq Bayramov hazırlıq kursunun sovet dönəmində də fəaliyyət göstərdiyni xatırladıb. Qeyd edib ki, o zaman bu bölmə daha çox əmək adamlarının Tibb İnstitutuna qəbul olunmasını asanlaşdırmaq funksiyası daşıyırdı: "Amma indi formasını və mahiyyətini tamamilə dəyişib. Artıq xarici tələbələr hazırlıq kursu keçərək I kursa daxil olurlar. Burada 3 əsas fənn – kimya, biologiya, fizika, eləcə də Azərbaycan bölməsinin tələbələri üçün Azərbaycan, rus bölməsinin tələbələri üçün rus, ingilis bölməsinin tələbələri üçün ingilis dili tədris edilir. Ümumi dərs müddəti 6 aydır. Dərslər yanvar ayından başlayır, iyulun 1-ci həftəsinədək davam edir. Hazırlıq kursunda təkcə Azərbaycan dilinin tədrisinə 480 saat ayrılır. Müşahidələrimiz göstərdi ki, I kursa qəbul olunan əcnəbi tələbələr daha çox "Anatomiya" və "Histologiya" fənlərini öyrənməkdə çətinlik çəkirlər. Bu baxımdan Azərbaycan dilinin tədrisinə ayrılan saatların azaldılaraq, yeni fənnin tədrisinə yönəldilməsini təklif etdik. Universitet rəhbərliyi təklifimizi müsbət qarşıladı və Elmi Şuranın qərarı ilə "Tibbi biliklərin əsasları" fənninin hələlik 60 saat dərs yükü ilə tədrisinə başlanılacaq".

# Mürəkkəb rekonstruktiv əməliyyat uğurla başa çatıb



Tədris Cərrahiyyə Klinikasında ayağında geniş toxuma zədələnməsi yaranmış pasiyent üzərində mürəkkəb rekonstruktiv əməliyyat uğurla icra olunub. Klinikanın Plastik cərrahiyyə şöbəsinin müdiri Adil Cümşüdovun rəhbərliyi ilə aparılan əməliyyat zamanı nekrotizan fassiit səbəbilə yaranmış dərin yaralar cərrahi müdaxilə ilə aradan qaldırılıb.

A.Cümşüdovun sözlərinə görə, nekrotizan fassiit - dərialtı yumşaq toxumaların sürətlə ölümünə səbəb olan ağır bakterial infeksiyasıdır. Əməliyyat olunan pasiyentin ayağının böyük bir hissəsində genişmiqyaslı və dərin yaralar əmələ gəlibmiş. Əməliyyat zamanı nekrozlaşmış toxumalar tam təmizləndikdən sonra hər iki aşağı ətrafdan geniş dəri parçaları götürülərək, zədələnmiş sahələrin örtülməsi üçün köçürülüb.

Mütəxəssis bildirir ki, bu tip yaralar çox gec sağalır, öz-özünə bərpası olduqca çətindir. Məhz buna görə bu xəstəlik zamanı ən mühüm müalicə üsullarından biri dəri transplantasiyasıdır: "Dəri köçürülməsi üçün ilk növbədə nekrozlaşmış toxumalar tam təmizlənməlidir. Yara infeksiyadan azad edilməli və qranulyasiya toxuması ilə örtülü olmalıdır ki, köçürülən dəri həmin sahəyə yaxşı adaptasiya olsun".

Həkimin sözlərinə görə, əməliyyatın uğurla sonlanmasını şərtləndirən digər əsas amil dərinin düzgün texnika ilə götürülməsidir. Bu məqsədlə Tədris Cərrahiyyə Klinikasında mövcud olan müasir elektrikli dermatom cihazlarından istifadə olunur. Bu texnologiya dərinin optimal qalınlıqda və dəqiqliklə götürülməsinə imkan yaradır.

A.Cümşüdov əlavə edib ki, bu tip ağır infeksion və travmatik yaralardan savayı, II və III dərəcəli yanıq hallarında da dəri köçürülməsi geniş tətbiq olunur. Bu metod üz, gövdə və bədənin müxtəlif nahiyələrində yaranan geniş toxuma defektlərinin bərpasında effektiv nəticələr verir.





# "Xocalı harayı" kitabının təqdimatı keçirilib

## Professor Mübariz Allahverdiyevin təkcə bacarıqlı pedaqoq deyil, həm də zəngin yaradıcılıq irsinə malik ziyalı olduğu vurğulanıb

**İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Mübariz Allahverdiyevin "Xocalı harayı" kitabının təqdimatı keçirilib. Tədbir ATU və "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub.**

Tədbirin əvvəlində Dövlət Himni səsləndirilib, Vətənimizin azadlığı uğrunda şəhid olanların və Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov çıxış edərək universitetin rektoru, professor Gəray Gəraybəylinin salamlarını tədbir iştirakçılarına çatdırıb. O, professor Mübariz Allahverdiyevin müəllifi olduğu "Xocalı harayı" kitabının əhəmiyyətindən bəhs edərək, xalqımızın həmin dövrdə son dərəcə ağır və faciəli günlər yaşadığını vurğulayıb.

Prorektor, həmçinin görkəmli alim və pedaqoq M.Allahverdiyevin tibb təhsilinin inkişafına verdiyi töhfələri yüksək qiymətləndirib.

M.Səfərov qeyd edib ki, tələbəlik illərindən tanıdığı Mübariz müəllim yüksək mədəniyyəti, təmkini, sadəliyi və peşəkarlığı ilə hər zaman seçilib. Onun, xüsusilə insan anatomiyası sahəsində tələbələrə aşıladığı biliklər bu gün də yüzlərlə həkimin peşə fəaliyyətində mühüm rol oynayır.

Prorektor vurğulayıb ki, M.Allahverdiyev təkcə bacarıqlı pedaqoq deyil, həm də zəngin yaradıcılıq irsinə malik ziyalıdır. Müəllifin elmi və bədii əsərlərində vətənə məhəbbət, torpağa bağlılıq və xalqımızın taleyində mühüm yer tutan hadisələr öz əksini tapıb. O, torpaqların azad edilməsindən sonra müəllifin yaradıcılığında yeni ruh və yüksəlişin hiss olunduğunu, əsərlərinin bu gün də geniş oxucu auditoriyası tərəfindən maraqla qarşılandığını bildirib.

Sonra "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyinin sədri Şamil Sabiroğlu çıxış edib. O, Xocalı soyqırımı zamanı dinc əhaliyə qarşı törədilmiş vəhşiliklərdən danışıb, 613 nəfərin bir gecədə amansızlıqla qətlə yetirildiyini xatırladıb. Ş.Sabiroğlu "Xocalı harayı" kitabının bu faciəvi həqiqətlərin həm Azərbaycan, həm də dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadığını qeyd edib.

Həmin dövrdə baş həkim vəzifəsində çalışmış Tariyel Eyvazov qanlı hadisələr zamanı rəhbərlik etdiyi kollektivin yaralıların həyata qaytarılması istiqamətində fədakar fəaliyyətindən bəhs edib, həmin günləri böyük ürək ağrısı ilə xatırladığını bildirib.

Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur erməni vandalizmi və xalqımıza qarşı törədilən cinayətlərin heç vaxt unudulmayacağını, Xocalı soyqırımının dünya tarixində ən ağır faciələrdən biri olduğunu diqqətə çatdırıb.

Daha sonra professor Mübariz Allahverdiyevin həyat və yaradıcılıq yolunu əks etdirən video-rolik nümayiş etdirilib.

Tədbirdə çıxış edənlərdən Milli Qəhrəman Şirin Mirzəyevin ömür-gün yoldaşı Flora Qasımova, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, professor Nəriman Mövsümov, eləcə də Ədalət Məhərrəmov, Mövsümağa Ədalətoğlu və digər natiqlər erməni işğalının xalqımıza vurduğu zərərlərdən, torpaqlarımızın 30 ildən artıq işğal altında qalmasından, həmçinin Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində ərazi bütövlüyümüzün bərpa olunmasından danışıblar. Onlar kitabın gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacağını bildiriblər.

Humanitar kollecin tələbəsi Yusif Səccad müəllifin kitabda yer alan bir şeirini bədii qiraətlə səsləndirərək tədbirə xüsusi rəng qatıb.

Sonda professor Mübariz Allahverdiyev çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib. O, Xocalı sakinlərinin mərd və torpağa bağlı insanlar olduğunu qeyd edib, onların doğma yurdlarına qayıdaraq yenidən qurub-yaratdıqlarını vurğulayıb və belə faciələrin bir daha təkrarlanmamasını arzulayıb.

**Qabil ABDULLAYEV**

# "ATUREK 14"ün məruzəçiləri bir arada

**Rezident və magistrantların "ATUREK 14 - Yüksəlişə doğru" adlı elmi-praktik konfransında çıxış edən məruzəçilərlə görüş keçirilib.**



Rezidentura və magistratura şöbəsinin müdiri İlhamə Mustafayeva məruzəçilərə nümunəvi iştiraklarına görə minnətdarlıq edib. Şöbə müdiri bildirib ki, artıq 14-cü dəfə təşkil olunan konfransda çıxış edən rezidentlərin elmi məqalələri, tezis və tədqiqat işləri istər ölkə səviyyəli, istərsə də nüfuzlu xarici nəşrlərdə yer alıb.

Görüşdə, həmçinin bildirilib ki, konfransda 15 klinik baza üzrə 240-dan çox məruzəçini 140 ekspert qiymətləndirib və qaliblər bu qiymətləndirmə əsasında seçilib.

Daha sonra konfransın təşkilati işlərində, sessiya iclaslarında fəallıq göstərən rezident və magistrantlara diplom və sertifikatlar təqdim edilib.

# Psixiatrlar Qarabağ Universitetində toplaşıb

**ATU və Azərbaycan Psixiatriya Assosiasiyasının (AzPA) birgə təşkilatçılığı ilə Qarabağ Universitetində (QU) ilk irimiqyaslı elmi-tibbi konqres keçirilib.**

QU-nun da təşkilati dəstək verdiyi Assosiasiyanın VIII Elmi və hesabat-seçki konqresinə ölkənin müxtəlif bölgələrini təmsil edən psixiatr, narkoloq, professor, dosentlər, tibb müəssisələrinin rəhbərləri, gənc mütəxəssis və rezidentlər qatılıb.




Konqres müasir psixiatriyanın aktual problemləri, psixi sağlamlığın qorunması, müharibə və travmanın psixi nəticələri, uşaq və yeniyetmə psixiatriyası, asılılıq problemləri, reabilitasiya və innovativ müalicə yanaşmalarına həsr olunub.

Konqresin təşkili və elmi proqramının həyata keçirilməsində universitetimizin Psixiatriya kafedrasının professor, dosent və müəllimlərindən ibarət 12 əməkdaşı xüsusi fəallıq göstərib, elmi məruzələrlə çıxış edib və geniş müzakirələr aparıblar.

Elmi-tibbi konqres çərçivəsində keçirilən AzPA-nın hesabat-seçki iclasında Assosiasiyanın nizamnaməsinə dəyişikliklər edilib, 25 nəfərlik Şura (Plenum), eləcə də Nəzarət-təftiş və Etika komitələrinin üzvləri seçilib.

# ATU "Times Higher Education" reytinqində ciddi irəliləyiş əldə edib

**Azərbaycan Tibb Universiteti "Times Higher Education" tərəfindən yeni dərc olunmuş "İmpact Rankings" (Təsir Reytinqi) cədvəlində mühüm uğura imza atıb. Bu göstərici universitetin beynəlxalq nüfuzunun artmasını və qlobal davamlılıq standartlarına sadiqliyini əks etdirir.**




**Universitetimiz ötən ilki nəticəni üstələyərək, 401-600-cü yerlər sırasına yüksəlib**

Son reytinqlər təhsil müəssisəsinin xüsusilə bərabərsizliklərin azaldılması istiqamətində əldə etdiyi mühüm irəliləyişləri göstərir. İnstitusional inkişafın bariz nümunəsi olaraq, ATU Dayanıqlı İnkişaf Məqsədi - 10 (Bərabərsizliklərin azaldılması) üzrə böyük sıçrayış edib. Belə ki, universitetimiz ötən ilki qlobal miqyasda 601-800 aralığından bu il 401-600-cü yerlər sırasına yüksəlib.

Bu yüksələn trayektoriya ATU-nun inklüziv təhsil siyasətini uğurla tətbiq etdiyini, müxtəlif tələbə qrupları üçün imkanları genişləndirdiyini, mədəniyyətlərarası festivallara ev sahibliyi etdiyini və tibb təhsilində sosial-iqtisadi fərqləri aradan qaldırmaq üçün nəzərdə tutulmuş hədəfli dəstək mexanizmlərini reallaşdırdığını sübut edir.

"Times Higher Education"ın "İmpact Rankings"i universitetləri Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə əsasən qiymətləndirir. ATU-nun nümayiş etdirdiyi dinamik performans Azərbaycanın tibb kurikulumunun və elmi-tədqiqat layihələrinin qlobal humanitar və inkişaf hədəfləri ilə uyğunlaşdırılması istiqamətində məqsədyönlü addımlardan xəbər verir.

# Universitetimiz Qlobal Dayanıqlı İnkişaf Konqresində təmsil olunub



**Azərbaycan Tibb Universiteti İndoneziyanın Cakarta şəhərində keçirilən və nüfuzlu ali təhsil qurumlarını bir araya gətirən Qlobal Dayanıqlı İnkişaf Konqresi-2026-da (Global Sustainable Development Congress) öz stendi ilə iştirak edib.**

"Times Higher Education" (THE) reytinq agentliyi tərəfindən təşkil olunan beynəlxalq tədbirdə universiteti Elmi işlər üzrə prorektor Məlahət Sultan, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva və I Mamalıq və ginekologiya kafedrasının əməkdaşı Aynur Rzayeva təmsil ediblər. Əməkdaşlarımız ATU-nun dayanıqlı inkişafla bağlı həyata keçirdiyi təhsil və elmi-tədqiqat layihələri, beynəlxalq tərəfdaşlıq proqramları, yaşıl kampus təşəbbüsləri, eləcə də iqlim dəyişikliyinə uyğunlaşma sahəsində atdığı addımları stend ziyarətçilərinin diqqətinə çatdırıblar.

ATU-nun bu konqresdə fəal iştirakı Azərbaycanın ali təhsil sisteminin qlobal gündəmdəki mövqeyinin möhkəmləndirilməsinə, universitetin beynəlxalq tanınmının artırılmasına və dayanıqlı inkişaf məqsədlərinə töhfə verən təşəbbüslərin beynəlxalq ictimaiyyətə çatdırılmasına xidmət edir. Bu cür tədbirlər, həmçinin universitetimizin beynəlxalq elmi-akademik şəbəkəyə daha sıx inteqrasiyası üçün yeni imkanlar yaradır.

Qeyd edək ki, THE reytinq agentliyi tərəfindən təşkil olunan konqresin məqsədi ali təhsil ocaqları, tədqiqat institutları, dövlət qurumları və qeyri-hökumət təşkilatları arasında BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri istiqamətində görülən işləri təqdim etməkdir.

# Cakartada "UI GreenMetric"in sədri ilə görüş keçirilib




Beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addım olaraq, Azərbaycanın aparıcı ali təhsil müəssisələrinin nümayəndə heyəti Cakartada "UI GreenMetric Dünya Universitetləri Reytinqi"nin sədri doktor Vişnu Cuvono ilə görüş keçirib.

Görüşdə əsas diqqət "yaşıl reytinq" meyarlarına, universitet şəhərciklərində (kampuslarda) davamlı inkişaf prinsiplərinin tətbiqinə və gələcək tərəfdaşlıq imkanlarının araşdırılmasına yönəlib.

Görüşdə ATU-nu İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva və I Mamalıq-ginekologiya kafedrasının əməkdaşı Aynur Rzayeva təmsil ediblər. Əməkdaşlarımız ekoloji meyarların tibb təhsilinə inteqrasiya edilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və beynəlxalq əlaqələr üzrə prorektor Hüseyn Hüseynov da iştirak ediblər.

Müzakirələr zamanı Azərbaycan universitetlərində resurslardan səmərəli istifadə və karbon qazı tullantılarının azaldılması istiqamətində "UI GreenMetric" metodologiyasından necə yararlanmaq barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Uro-Androloqlarının XXIV Simpoziumu baş tutub




**Bu günlərdə Qəbələ şəhərində Azərbaycan Uro-Androloqlarının XXIV Simpoziumu keçirilib.**

Tədbir Azərbaycan Tibb Universitetinin Urologiya kafedrası və Azərbaycan Androloqlar Cəmiyyətinin dəstəyi ilə təşkil olunub. Tədris Cərrahiyyə Klinikasının uroloq-cərrahı, Azərbaycan Andrologiya Cəmiyyətinin sədri, professor İlham Əhmədov, eləcə də kafedra müdiri, professor Rauf Nağıyev, akademik Südeyif İmamverdiyev və professor Əlimərdan Baxışov simpoziumun elmi proqramında fəal iştirak ediblər.

Simpoziumun ilk günündə Türkiyənin tanınmış uroloqu, ATU-nun fəxri professoru Ateş Kadiroğlu və professor İlham Əhmədov tərəfindən əməliyyatın canlı nümayişi həyata keçirilib. Həmçinin iştirakçılar üçün nəzəri kurs təşkil olunub.

İki gün davam edən tədbirdə 121 həkim, o cümlədən 6 xarici mütəxəssis iştirak edib. Simpozium çərçivəsində uroloji və androloji sahədə son elmi yeniliklər, innovativ yanaşmalar, robotik cərrahiyyənin imkanları və müasir əməliyyat texnikaları müzakirə edilib.

Konfransın ikinci günündə təxminən 20 sessiya və 21 məruzənin təqdimatı baş tutub. Yerli və xarici mütəxəssislərin çıxışları, o cümlədən tanınmış belaruslu uroloq, Həkimləri Təkmilləşdirmə Universitetinin Urologiya kafedrasının rəhbəri Dmitri Nitkinin məruzəsi böyük maraqla qarşılanıb.

# Əməkdaşlarımız Transxəzər BHPBA konqresindən qayıdıb




**Universitetimizn nümayəndələri Özbəkistanın Daşkənd şəhərində keçirilən Transxəzər Beynəlxalq Hepato-Pankreato-Biliar Cərrahlar Assosiasiyanın (Transxəzər BHPBA) II beynəlxalq konqresində iştirak ediblər.**

Azərbaycan, Özbəkistan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Balkan ölkələri və Rusiyadan 300-ə yaxın mütəxəssisin qatıldığı konqresi dəstəkləyən təşkilatlar arasında TİKA (Türk İşbirliyi və Koordinasiya Agentliyi), Türk və Balkan Hepato-Pankreato-Biliar Cərrahlar Dərnəkləri və Daşkənd Tibb Universiteti var. Konqresin təşkilinə Transxəzər İHBA prezidenti professor Nuru Bayramov, konqresin sədrləri professor Mustafa Kerem və professor Oktyabr Teşaev rəhbərlik ediblər.

ATU-nun professorları Fariz Camalov, Rüstəm Məmmədov, Mübariz Əliyev, Yusif Əliyev, Elman Tağısoy və dosent Babək Zeynalovun qatıldığı konqresdə öd yollarının zədələnmələri, mədəaltı vəzi xərçəngi, əməliyyatsonrası ağırlaşmalar, kəskin və xroniki pankreatitlər müzakirə olunub. Bundan əlavə, konqresdə qaraciyər metastazları və transplantasiyası, minimal-invaziv cərrahiyyə, Cərrahi Platforma tədris portalı, Türk HPB məktəbi, Transxəzər İHBA perspektivi və digər məsələlər diqqət mərkəzində saxlanılıb.

# Kafedra müdiri Türkiyədə elmi məruzə ilə çıxış edib




Türkiyənin Ərzurum şəhərində "Modern İpək Yolu üzərində Türk Dövlətlərinin siyasi və iqtisadi inteqrasiya prosesləri: çətinliklər və perspektivlər" adlı beynəlxalq elmi konfrans keçirilib.

Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin inkişafı, inteqrasiya proseslərinin mövcud vəziyyəti və gələcək perspektivlərin elmi müstəvidə müzakirəsinə həsr olunan konfransda ATU-nun İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev məruzə ilə çıxış edib. O, "Böyük İpək Yolu: bəşəriyyətin tərəqqi yolu və Azərbaycanın tarixi-strateji əhəmiyyəti" mövzusunda məruzəsində bir çox məqamlara toxunub.

Məruzədə Azərbaycanın tarixi İpək Yolu üzərində yerləşməsi, Şərq və Qərb arasında mədəni körpü rolunu oynaması, müxtəlif sivilizasiyalar arasında qarşılıqlı təsirin formalaşmasına verdiyi töhfələr, eləcə də ölkəmizin müasir dövrdə türk dünyasının inteqrasiyası və beynəlxalq əməkdaşlıq proseslərində oynadığı rol elmi əsaslarla təhlil edilib.

Konfrans çərçivəsində İpək Yolunun modern istiqamətlərindən biri kimi Zəngəzur koridorunun əhəmiyyətindən də bəhs edilib və Prezident İlham Əliyevin bu barədə çıxışlarının əsas müddəaları konfrans iştirakçılarının nəzərinə çatdırılıb. Türkiyə, Azərbaycan və digər türk dövlətlərindən olan alimlərlə elmi müzakirələr, gələcək əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Tədbirdə fəal iştirakı və maraq doğuran məruzəsinə görə əməkdaşımıza Atatürk Universiteti tərəfindən təşəkkürnamə təqdim edilib.

# Növbəti Avrasiya Patenti alınıb



Əczaçılıq toksikologiyası və kimya kafedrasının elmi-tədqiqat fəaliyyətində növbəti uğur əldə olunub. Kafedra əməkdaşları Eldar Qarayev, Adilə Vəliyeva, Sara Paşayeva və Nazilə Hüseynova tərəfindən hazırlanmış "Skopolaminin alınma üsulu" adlı ixtiraya Avrasiya Patenti verilib.

Təqdim olunmuş ixtira tropan alkaloidlər qrupuna aid olan və tibdə geniş tətbiq edilən skopolamin maddəsinin respublikamızın florasında yayılmış Datura inoxia Mill. – Hind dəlibəngi bitkisinin yerüstü hissəsindən alınmasının yeni üsulunu əhatə edir. Skopolamin müxtəlif sahələrdə, o cümlədən spazmolitik, qusma və ürəkbulanma əleyhinə preparatların hazırlanmasında, həmçinin cərrahi müdaxilələrdən əvvəl tətbiq olunan dərman vasitələrinin tərkibində istifadə edilir. Bu baxımdan, maddənin əlverişli və səmərəli üsulla əldə olunması əczaçılıq sənayesi üçün mühüm əhəmiyyət daşıyır. Patentləşdirilmiş texnologiya skopolaminin bitki xammalından ayrılması və təmizlənməsi prosesinin optimallaşdırılmasına yönəlib. Hazırlanmış üsul mövcud yanaşmalarla müqayisədə məqsədli maddənin daha yüksək çıxımını əldə etməyə, xammaldan istifadənin səmərəliliyini artırmağa imkan verir.

**Universitetimizin təşkilatçılığı və Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidmətinin təşəbbüsü ilə Elmi Araşdırmalar Mərkəzində (EAM) yanğın təhlükəsizliyi ilə bağlı müşavirə keçirilib.**

## Yanğın təhlükəsizliyi ilə bağlı növbəti müşavirə keçirilib



Müşavirədə çıxış edən EAM direktorunun müavini, dosent Elçin Əkbərov tədbirin əhəmiyyəti haqda ətraflı məlumat verib.

Dövlət xidmətinin Təbliğat şöbəsinin böyük təlimatçısı Nizami Fərəcov qeyd edib ki, məqsəd işçi heyətə yanğın təhlükəsizliyi qaydalarının öyrədilməsi, təxliyə tədbirləri, yanğın zamanı davranış qaydaları vərdişlərinin aşılanmasıdır. Səhiyyə obyektlərində baş vermiş yanğın hadisələri haqda geniş məlumat verən N.Fərəcov qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması məqsədilə aidiyyəti qurumların koordinasiyalı fəaliyyətinin vacibliyini vurğulayıb.

ATU-nun Mülki Müdafiə Qərargahının rəisi Ramiz Əliyev universitetdə mülki müdafiə hazırlığının vəziyyəti və görülən işlərdən söz açıb.

Tədbirin praktik hissəsində ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb. Sonda EAM-ın yanğın təhlükəsizliyinə cavabdeh əməkdaşlarına maarifləndirici materiallar təqdim olunub.

# Hərbi tibb fakültəsi Tələbə Elmi Cəmiyyətinə yeni sədr seçilib

**Hərbi tibb fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) genişləndirilmiş müşavirəsi keçirilib. İki paneldən ibarət olan tədbirin ilk hissəsində fakültənin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev, ATU TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova, ATU TEC sədri Nigar Babayeva, sədr müavinləri və İctimai səhiyyə fakültəsi TEC-in elmi rəhbəri, dosent Fərəh Baxışlı çıxış ediblər.**

Universitetin Startap və kommersiyalaşdırma şöbəsinin müdiri, dosent Ayət Cəfərova, koordinatoru Könül Qaragözova tələbələrin innovativ layihələrə cəlb olunması barədə məlumat veriblər. Tədris şöbə rəisinin elmi işlər üzrə müavini, tibb xidməti polkovnik-leytenantı Saleh Əhmədov isə TEC-in bir illik fəaliyyətinə dair geniş hesabat məruzəsi təqdim edib.

İkinci paneldə TEC Şurası çərçivəsində sədr seçkiləri keçirilib. Fakültə tələbələrindən 4 namizədin platforması dinlənildikdən sonra Şuranın 31 üzvündən 27 nəfərin və fakültə rəisinin iştirakı ilə Hesablama Komissiyasının üzvlərinin (Möhsün Quluzadə - VI kurs, Elmir Mirzəyev - IV kurs, Qəndab Bağırova - I kurs) nəzarəti altında səsvermə prosesi baş tutub. Səslərin mütləq çoxluğunu qazanan II kurs tələbəsi Fərid Rzayev Hərbi tibb fakültəsi TEC-in yeni sədri seçilib.



# Ağır vəziyyətdə müraciət etmiş xəstə uğurla əməliyyat olunub



Tədris Cərrahiyyə Klinikasının II Cərrahiyyə şöbəsinin müdiri, professor Xaləddin Musayev növbəti mürəkkəb əməliyyat haqda məlumat verib. Onun sözlərinə görə, pasiyent müraciət etməmişdən 20 gün əvvəl başqa tibb müəssisəsində appendektomiya əməliyyatı keçirib. Əməliyyat zamanı kor bağırsaq nahiyəsində törəmə aşkarlansa da, həmin müdaxilə yalnız appendektomiya ilə yekunlaşdırılıb və törəmənin sonradan xaric edilməsi planlaşdırılıb.

Əməliyyatdan sonrakı dövrdə pasiyentin vəziyyəti ağırlaşıb. O, yüksək hərarət, qarın nahiyəsində ağrılar və iltihabi proses əlamətləri ilə müxtəlif tibb müəssisələrinə müraciət edib. Lakin törəmənin xarakterinin tam aydın olmaması səbəbindən cərrahi müdaxilə təxirə salınıb.

Pasiyent Tədris Cərrahiyyə Klinikasında ətraflı müayinədən keçirilib. X.Musayev qeyd edib ki, pasiyentin diaqnostikasında klinikanın Şüa-diaqnostika şöbəsinin müdiri, dosent Rasim Bayramovun radioloji rəyi mühüm əhəmiyyət kəsb edib. Aparılan görüntüləmə müayinələrinin nəticələri törəmənin lokalizasiyasının və xarakterinin daha dəqiq qiymətləndirilməsinə imkan verib. Kontrastlı kompüter tomoqrafiyası və digər diaqnostik müayinələrin nəticələrinə əsasən, kor bağırsaq nahiyəsində yerləşən törəmə, eləcə də Kron xəstəliyi ehtimalı nəzərdən keçirilib. Pasiyentdə 39-40 dərəcəyə çatan yüksək hərarətin davam etməsi səbəbindən təcili cərrahi müdaxilə qərarı verilib.

Əməliyyat zamanı kor bağırsağın qarının yan divarına sıx bitişdiyi və hərəkətsiz vəziyyətdə olduğu müəyyən edilib. Cərrahi manipulyasiyalar zamanı həmin nahiyədə təxminən 100-150 qram irinli möhtəviyyat aşkarlanaraq boşaldılıb. Daha sonra kor bağırsaq qübbəsində infiltrasiya olunmuş, dağılma mərhələsində olan törəmə müəyyən edilib.

Törəmənin xarakterinin dəqiqləşdirilməsi məqsədilə toxuma nümunələri histoloji müayinəyə göndərilib. Pasiyentə sağtərəfli hemikolektomiya əməliyyatı və bağırsaq keçiciliyinin bərpası məqsədilə ileotransvers anastomoz icra olunub.

Professor qeyd edib ki, hazırda pasiyentin vəziyyəti qənaətbəxşdir. O, sərbəst hərəkət edir, qidalanır və əməliyyatdan sonrakı dövr normal keçir.

# Əməkdaşlarımızın uğurları



Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəylinin rəhbərliyi altında fəaliyyət göstərən Dağınıq Skleroz İşçi Qrupu (dosent Şəhla Mehtiyeva, assistentlər Samirə İsmayilova, Nuridə Tağıyeva, Fatimə Əliyeva) Türkiyənin İstanbul şəhərində keçirilən I Dağınıq Skleroz Konqresində ölkəmizi təmsil edib.

Tədbir çərçivəsində həkimlərimiz tərəfindən həyata keçirilən elmi-praktik tədqiqatların nəticələrini əks etdirən məruzələr təqdim olunub, aparılan araşdırmaların ayrı-ayrı aspektləri beynəlxalq elmi ictimaiyyətlə bölüşülüb.

Konqresdə müxtəlif yaş qruplarında dağınıq skleroz xəstələrinin diaqnostikası və müalicəsinə dair ən son beynəlxalq tövsiyələr, eləcə də müasir terapevtik yanaşmalar müzakirə edilib, iştirakçılar bu sahədə əldə olunan yeni elmi nailiyyətlər və klinik təcrübələr barədə məlumatlandırılıb.

* * *

Beynəlxalq Plastik və Estetik Cərrahiyyə Cəmiyyətinin (The International Society of Aesthetic Plastic Surgery (ISAPS)) 99 ölkədən nümayəndələrin iştirakı ilə növbəti onlayn iclası keçirilib.




Müasir istiqamətlər və yeniliklərin müzakirə olunduğu iclasda Cənubi Qafqazdan yalnız Azərbaycan səsvermə hüququ ilə təmsil olunub. İclasa Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru, ISAPS-ın milli katibi Vaqif Qələndərov qatılıb.

Onlayn iclasda müasir protokollar yenidən nəzərdən keçirilib və qiymətləndirilib, eyni zamanda bir çox qeyri-peşəkar əməliyyatların yaratdığı problemlər əsas müzakirə mövzularından olub.

* * *



Biokimya kafedrasının dosenti Rəna Rəhimova “Frontiers in Medicine” jurnalında dərc edilmiş “Association between the TNF-α-308G/A and TNF-α-238G/A polymorphisms and systemic lupus erythematosus susceptibility: an updated meta-analysis” adlı məqalənin elmi ekspertizasını (peer-review) həyata keçirib.

Jurnalın redaksiyası tərəfindən təqdim olunan rəsmi təşdiq məktubunda onun elmi ekspert kimi peşəkarlığı və rəyçilik prosesinə verdiyi töhfə xüsusi vurğulanıb.

R.Rəhimova əvvəllər də nüfuzlu “Cytokine Journal” (Elsevier) jurnalında rəyçi kimi fəaliyyət göstərib və bu xidmətinə görə “Elsevier” nəşriyyatı tərəfindən “Certificate of Reviewing” sertifikatı ilə təltif olunub.

* * *

Dermatovenerologiya kafedrasının əməkdaşları və rezidentləri Bakıda keçirilən V Beynəlxalq Dermatovenerologiya Konqresində də iştirak ediblər. Azərbaycan Dermatovenerologlar Assosiasiyasının (ADVA) təşkilatçılığı ilə baş tutan tədbirə Türkiyə, İtaliya, Polşa, Latviya, Gürcüstan, Qazaxıstan və Özbəkistandan tanınmış alim və mütəxəssislər qatılıblar.



Konqresin elmi-təşkilati komitəsinin üzvü, Dermatovenerologiya kafedrasının müdiri, professor Fərid Mahmudov, həmçinin kafedranın əməkdaş və rezidentləri tədbirdə müasir dermatologiyanın aktual mövzularına həsr olunmuş elmi təqdimatlarla çıxış ediblər.

* * *

Farmakoqnoziya kafedrası əməkdaşlarının məqaləsi Q1 kvartilli “Ethnobotany research and applications” jurnalında dərc edilib. Məqalədə Azərbaycanın Lerik və Yardımlı rayonlarının yüksək dağlıq ərazilərində - Diabarda aparılmış etnofarmakoloji tədqiqatın nəticələri əks olunub.



Ölkəmizin qədim və zəngin xalq təbabəti dünyaya tanıtmaq baxımından məqalə dəyərli bir mənbədir. Dünyanın aparıcı ölkələrində xalq təbabəti müasir üsullarla tədqiq olunur və toplanmış məlumatlar gələcək tədqiqatlar üçün baza rolunu oynayır. Bu məqalənin nəticələri Azərbaycan xalq təbabətinin təcrübəsinə əsaslanaraq, floramızda yayılmış endem və subendem dərman bitkilərinə aid ATU-nun Farmakoqnoziya, Farmakologiya və digər ixtisas kafedralarında elmi tədqiqatların aparılması üçün imkanlar açır.

Diabar ərazisində yerinə yetirilmiş tədqiqatda Farmakoqnoziya kafedrasının müdiri, professor Cavanşir İsayev, baş müəllimlər Xuraman Mustafayeva, Aydan Qədimli, assistentlər Nərmin Babayeva, Günay Cəfərova və Nilufər Səfərova, eləcə də Pakistanın Hazara Universitetinin əməkdaşları - professor Ghulam Mujtaba Shah, Khursheed Ur Rehman, İkramullah Khan və Fazal Ullah iştirak ediblər.

* * *

Elmi Araşdırmalar Mərkəzinin Tibbi kimya şöbəsinin müdiri, professor Xudayar Həsənovun məqaləsi “Journal of Organometallic Chemistry” jurnalında dərc edilib. Jurnal "Web of Science” beynəlxalq indeksləşdirmə bazasında Q2 (Quartile) səviyyəsinə və 2,4 impakt faktora malikdir.

Məqalədə kobaltın tsiklik karbonatlarla 24 saat, 60 dərəcə temperaturda, 40 bar təzyiqdə 74% çıxımla qarışıqliqandlı kompleksləri tədqiq edilib. Alınan kompleks birləşmənin CO_2-ni adsorbsiya etməklə bəzi bioloji fəallıqlar göstərməsi tədqiq edilib.

* * *

Elmi Araşdırmalar Mərkəzinin Tibbi kimya şöbəsinin baş elmi işçisi Əsmət Əzizovanın məqaləsi "Scopus" platformasında Q1 (Quartile) kateqoriyasına daxil olan "İnorganic Chemistry Communications" jurnalında dərc edilib.

Məqalədə əməkdaşlar tərəfindən sintez edilmiş qurğuşunun bir və çoxnüvəli supramolekulyar dizaynlı kompleks birləşmələrinin quruluşu Rentgen Quruluş Analizi vasitəsilə tədqiq edilib.

Müəyyən olunub ki, çoxnüvəli kompleksdə polimer zəncirinin mövcudluğuna baxmayaraq, metal-metal rabitəsi yaranmır. Məhz bu rabitənin olmaması metal atomları arasında müxtəlif konformasiyaların formalaşmasına gətirib çıxarır.

# Gənclər niyə unutqan olub?

## Yuxusuzluq, stress və psixoloji gərginlik əsas səbəblərdir

**Son illərdə yalnız yaşlılarda deyil, gənclər arasında da unutqanlıq hallarının artması, eləcə də yuxu pozuntularının geniş yayılması müşahidə olunur və bu hallar cəmiyyətdə narahatlıq doğurur. Unutqanlığın səbəbləri, nevroloji qiymətləndirmənin zəruriliyi, müalicə imkanları və yuxu pozuntularının mahiyyəti ilə bağlı suallar aktuallıq kəsb edir.**

Mövzu ilə bağlı daha ətraflı məlumat əldə etmək üçün nevropatoloq Yeganə Rəşidova ilə əlaqə saxladıq.



Mütəxəssisin sözlərinə görə, unutqanlığın yalnız yaş artdıqca ortaya çıxması ilə bağlı yayılmış fikir doğru deyil. Bu gün gənclər arasında "eynəyimi hara qoydum?", "açarları unutdum", "dünən verilən tapşırıqlar yadımdan çıxıb" kimi şikayətlərə tez-tez rast gəlinir. Bu hallar təsadüfi deyil və onların arxasında konkret səbəblər dayanır.

Başlıca səbəblərdən biri yuxusuzluqdur. Gənclər sosial şəbəkələrdə uzun müddət vaxt keçirməklə, yüksək gərginlik altında qalmaqla və ya telefon qarşısında saatlarla vaxt sərf etməklə özlərini yorurlar. Gec yatmaq və telefona baxaraq yuxuya getmək beynin normal fəaliyyətinə mənfi təsir göstərir və nəticədə yaddaş zəifləyə bilər.

Digər mühüm amil stress və psixoloji gərginlikdir. Xüsusilə yeniyetmə və gənclər üzərində valideynlərin yüksək tələbləri və maksimalist yanaşması daxili gərginlik yaradır. Bu da yaddaş funksiyalarına mənfi təsir göstərir.

Həkim qeyd edir ki, unutqanlığın qarşısını almaq üçün düzgün həyat tərzi, planlı gündəlik rejim və keyfiyyətli yuxu əsas şərtlərdir. Zərurət olduqda isə, nevroloji müalicə tətbiq edilməlidir.

Normal yuxu zamanı insanın orqanizmi və beyni bərpa olunur. Əgər yuxu keyfiyyətli deyilsə, enerji balansı pozulur, gün ərzində yorğunluq, başağrısı və digər narahatlıqlar yaranır. Bu səbəbdən xüsusilə gənclərin yuxu rejiminə ciddi riayət etməsi vacibdir.

Bununla yanaşı, bəzi hallarda yuxu zamanı qeyri-normal vəziyyətlər də müşahidə olunur. Məsələn, yuxuda danışmaq, diksinmək, qəfil oyanmaq, oyanarkən ürəkdöyünmə və həyəcan hiss etmək, hətta yuxuda ayağa qalxaraq müxtəlif hərəkətlər etmək kimi hallar baş verə bilər. Əgər insan səhər oyandıqda bu vəziyyətləri xatırlamırsa, bu artıq normal sayılmır və mütləq mütəxəssisə müraciət olunmalıdır.

Bu cür hallar çox vaxt yuxu pozuntuları ilə əlaqəli nevroloji problem kimi qiymətləndirilir. Dəqiq diaqnoz qoymaq üçün yuxu EEQ müayinəsi aparılır və bu zaman hər hansı patoloji vəziyyətin olub-olmaması müəyyən edilir.

Xüsusilə 50 yaşdan yuxarı şəxslərdə unutqanlıq müşahidə olunarsa, bu halda nevropatoloqla yanaşı, psixiatrın da müdaxiləsi vacib ola bilər. Əgər problem ciddi mərhələdədirsə, müalicə nevroloq və psixiatrın birgə yanaşması ilə aparılmalıdır.

Y.Rəşidova sonda vurğulayır ki, əgər gənc və ya uşaqda yuxu, qidalanma və gündəlik rejim normal olduğu halda belə, ciddi unutqanlıq müşahidə edilirsə, bu vəziyyət diqqətdən kənarda qalmamalıdır və mütləq geniş tibbi araşdırma aparılmalıdır. Xüsusilə qəfil başlayan və ya travmadan sonra yaranan unutqanlıq halları ciddi nevroloji problemlərin əlaməti ola bilər.

Bu baxımdan, erkən diaqnoz və vaxtında müalicə həm mümkün ağırlaşmaların qarşısını almaq, həm də sağlamlığın qorunması üçün xüsusi əhəmiyyət daşıyır.

**Bu günlərdə Fransanın paytaxtı Paris şəhərində Xərçəngin Profilaktikası və Kolposkopiya üzrə Beynəlxalq Federasiyanın (IFCPC) 19-cu Dünya Konqresi keçirilib. Dünyanın müxtəlif ölkələrindən aparıcı alimləri, tədqiqatçıları və səhiyyə mütəxəssislərini bir araya gətirən beynəlxalq tədbir HPV (insan papilloma virusu) ilə əlaqəli xəstəliklərin profilaktikası, skrininqi və müalicəsində son elmi yeniliklərin müzakirə olunduğu nüfuzlu platformalardan biridir.**

# Əməkdaşımızın araşdırması Parisdə yüksək qiymətləndirilib



Tədbirdə Azərbaycandan olan nümayəndə heyətinin tərkibində əməkdaşlarımız - I Mamalıq-ginekologiya kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının ginekoloqu Sevinc İsmayılova və assistent Ləman Əliyeva da iştirak ediblər.

Versal Konqres Sarayında keçirilən tədbir çərçivəsində HPV-yə qarşı vaksinasiya proqramları, uşaqlıq boynu xərçənginin skrininq strategiyaları, kolposkopiyanın müasir imkanları müzakirə olunub. Həmçinin hamiləlik zamanı HPV infeksiyasının idarə olunması, süni intellektin diaqnostik proseslərdə tətbiqi, fərdiləşdirilmiş tibbi yanaşmalar, xərçəngin profilaktikası sahəsində yeni elmi nailiyyətlərin nəşri haqqında danışılıb.

S.İsmayılovanın həmmüəllifliyi ilə hazırlanmış "PC_052 – HPV-müsbət hamilə qadınlarda obstetrik və neonatal nəticələr" adlı elmi tezis təqdim edilib. Tezisdə 2022-24-cü illər ərzində hamilə qadının iştirakı ilə aparılmış prospektiv tədqiqatın nəticələri əks olunub. Tədqiqat nəticələrinə əsasən, HPV-müsbət qadınlarda plasentar dəyişikliklər, damar patologiyaları və intervillöz sahənin genişlənməsi daha çox müşahidə olunub. Həmçinin bu qrupda perineal travmaların, plasentar qüsurların və vaxtından əvvəl doğuşların tezliyinin daha yüksək olduğu müəyyən edilib.

Azərbaycanlı müəlliflərin hazırladığı tezis konqresin elmi komitəsi tərəfindən müsbət qiymətləndirilib və tədbirin rəsmi nəşr toplusuna salınıb. Bu fakt Azərbaycan tibb elminin beynəlxalq elmi platformalarda uğurla təmsil olunduğunu və yerli tədqiqatçıların əldə etdikləri nəticələrin dünya elm ictimaiyyəti tərəfindən maraqla qarşılandığını göstərir.

# Parkinson xəstəliyinin qarşısını almaq mümkündürmü?



Parkinson xəstəliyi (PX) mərkəzi sinir sisteminin proqressivləşən neyrodegenerativ xəstəliyidir. PX çox zaman gizli başlayır. Bəzən ilk simptom sadəcə zəif bir titrəmə, bəzən isə qoxu hissinin azalması və ya uzunmüddətli qəbizlik ola bilər. Bu əlamətlər illərlə diqqətdən kənarda qala bilər.

İlk dəfə 1817-ci ildə James Parkinson tərəfindən təsvir edilən bu xəstəlik hazırda dünyada 10 milyondan çox insanın həyatına təsir edir və əsasən 60 yaşdan sonra ortaya çıxır. Bizim araşdırmaya əsasən Bakı şəhərində 2010-2019-cu illərdə 50 və yuxarı yaşlı əhalinin Parkinson xəstəliyi ilə ilkin xəstələnməsi 7,4-12,0 /100 000 əhali, ümumi xəstələnmə isə 101,4-110,6 /100 000 əhali intervalında dəyişərək artan tendensiya ilə səciyyələnib.

PX-nin əsas patoloji xüsusiyyəti qara maddə bölgəsində dofamin istehsal edən neyronların degenerasiyasıdır. Bu dəyişikliklər nəticəsində hərəkətlərin koordinasiyası pozulur. Xəstəliyin klinik əlamətləri həm motor (bradikineziya – hərəkətlərin ləngiməsi, istirahət tremoru, əzələ rigidliyi, postural qeyri-sabitlik), həm də qeyri-motor (depressiya və narahatlıq, yuxu pozuntuları, qəbizlik, iybilmənin zəifləməsi, koqnitiv pozuntular) simptomlarla xarakterizə olunur. Qeyri-motor simptomlar bəzən motor əlamətlərdən illər əvvəl ortaya çıxa bilər və erkən diaqnostika üçün mühüm əhəmiyyət daşıyır.

Kimlər risk altındadır? Parkinson xəstəliyinin inkişafında rol oynayan faktorlar iki əsas qrupa bölünür: modifikasiya olunan və modifikasiya olunmayan risk amilləri. Bu bölgü həm riskin qiymətləndirilməsi, həm də profilaktik yanaşma üçün mühüm əhəmiyyət daşıyır. Modifikasiya olunmayan risk amilləri insanın nəzarətindən kənardadır, lakin onların bilinməsi erkən diaqnoz və monitorinq üçün vacibdir: yaş (PX üçün ən güclü risk faktorudur), cins (kişilərdə daha çox rast gəlinir), genetik meyillilik (SNCA, LRRK2, PARK2 kimi genlərdə dəyişikliklər riski artırır). Modifikasiya olunan risk amilləri isə həyat tərzi və ətraf mühitlə bağlıdır və PX inkişafında mühüm rol oynayır. Bunlara ətraf mühit faktorları (pestisidlər, ağır metallar, havanın çirklənməsi), qidalanma (qırmızı ət və süd məhsulları riski artıra bilər, aralıq dənizi pəhrizi riski azaldır), fiziki aktivlik (oturaq həyat tərzi mühüm risk faktorudur) daxildir. Son illərdə alimlər Parkinson xəstəliyinin başlanğıc nöqtəsi ilə bağlı yeni bir hipotez irəli sürürlər. Bu yanaşmaya görə, xəstəlik bəzi hallarda beyində deyil, bağırsaqda başlaya bilər.

PX-nin qarşısını almaq mümkündürmü? Parkinson xəstəliyinin tam qarşısını almaq hələ mümkün olmasa da, riskin azaldılması real və əlçatandır. Modifikasiya olunan faktorların düzgün idarə olunması - sağlam və balanslı qidalanma, aktiv həyat tərzi, zərərli kimyəvi təsirlərdən uzaq durmaq xəstəliyin inkişafını gecikdirməyə və həyat keyfiyyətini qorumağa kömək edir.

**Fatimə ƏLİYEVA,**
*Nevrologiya kafedrasının assistenti*

# Yeniyetmənin sifətindəki törəmə götürülüb

**Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimovun rəhbərliyi ilə 13 yaşlı pasiyentin sifətində əmələ gəlmiş törəməni aradan qaldırmaq üçün əməliyyat icra olunub.**



Professor bildirib ki, əməliyyatın aparıldığı nahiyə mürəkkəb və həssasdır: "Üz nahiyəsi insan orqanizminin ən həssas hissələrindəndir. Burada həm estetik görünüş, həm də üz sinirinin funksiyası nəzərə alınmalıdır. Üz siniri mimik əzələlərin hərəkətinə cavab verdiyi üçün əməliyyat zamanı hər hansı bir ehtiyatsızlıq uzunmüddətli qüsura səbəb ola bilər. Bu səbəbdən bəzi hallarda bu əməliyyatlarda müdaxilə hətta mikroskop altında icra olunur".

Xəstənin əsas şikayəti törəmənin üzdə görünməsi və xarici görünüşün pozulması olub. Əməliyyatdan öncə aparılan müayinələr nəticəsində törəmənin xoşxassəli olduğu təsdiqlənib və əməliyyat növü müəyyən edilib. Əməliyyat zamanı törəmə tam xaric olunub.

Ç.Rəhimov qeyd edib ki, üz nahiyəsində əməliyyat aparan üz-çənə cərrahı və ya plastik cərrah bu sahənin anatomiyasını dərindən bilməli və simulyasiyalardan keçmiş olmalıdır.

# Poliplərin endoskopik yolla müalicəsi effektlidir

**Mədə və bağırsaq polipləri müasir tibdə çox zaman endoskopik üsulla, yəni cərrahi kəsik olmadan təhlükəsiz şəkildə çıxarılır. Tədris Cərrahiyyə Klinikasının ümumi cərrahı, həkim-qastroenteroloq Fərahim Məmmədzadə deyir ki, bu metod xəstələr üçün daha az travmatik və daha tez bərpa olunan bir yanaşmadır.**

Mədə və bağırsaq polipləri endoskopik yolla müayinə olunur, izlənilir və lazım gəldikdə müdaxilə edilərək çıxarılır. Poliplərin endoskopik yolla çıxarılması ümumilikdə təhlükəsiz prosedur olsa da, nadir hallarda müəyyən fəsadlar baş verə bilər. Məsələn, qanaxma, mədə və ya bağırsaq divarında deşilmə (perforasiya).

F.Məmmədzadə bildirir ki, 20 illik təcrübəsində heç vaxt hansısa fəsad baş verməyib. Çünki bu sahədə nəticəyə təsir edən əsas amillərdən biri həkimin təcrübəsi, digər tərəfdən isə istifadə olunan endoskopik avadanlığın keyfiyyətidir.

Texnologiya daim yenilənir və bu da daha az riskli və daha effektiv müalicə imkanları yaradır. Hətta bəzi hallarda endoskopik üsulla mədənin kiçildilməsi kimi yeni metodlar da tətbiq edilir. Yaxın vaxtlarda TCK bu sahədə əməliyyatların aparılmasına imkan verən avadanlıqların əldə edilməsini planlaşdırır.



# Autizm spektr pozuntusu olan uşaqlar üçün yarış təşkil olunub

**Bakı şəhər Gənclər və İdman İdarəsi, "Yaşam" İnklüziv Psixoloji Bərpa Mərkəzi və ATU-nun "Təbib" Tədris İdman Mərkəzinin birgə təşkilatçılığı ilə "Bakı 2026 - Dünyanın İdman Paytaxtı" münasibətilə autizmli uşaqlar arasında stolüstü tennis üzrə Nəsimi rayon turniri keçirilib.**







Turnirin əsas məqsədi autizmli uşaqların idmana cəlb olunması, onların fiziki və sosial inkişafının dəstəklənməsi, həmçinin cəmiyyətə inteqrasiyasının təşviq edilməsidir.

Tədbirin açılış mərasimində çıxış edən "Təbib" Tədris İdman Mərkəzinin müdiri, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov iştirakçıları salamlayaraq turnirin əhəmiyyətindən danışıb, yarış iştirakçılarına uğurlar arzulayıb və qonaqları təqdim edib.

Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov autizmli uşaqların cəmiyyətə inteqrasiyasında bu cür layihələrin mühüm rol oynadığını vurğulayıb. O, uşaqların fiziki və sosial inkişafına yönəlmiş təşəbbüslərin daim dəstəklənməsinin vacibliyini qeyd edərək idmançılara uğurlar arzulayıb.

Bakı Şəhər Gənclər və İdman İdarəsinin idman sektorunun müdiri Rəşad Əliyev də belə tədbirlərin uşaqların idmana marağının artırılması və sosial fəallıqlarının gücləndirilməsi baxımından əhəmiyyətini vurğulayaraq yarış iştirakçılarına müvəffəqiyyətlər diləyib.

"Yaşam" İnklüziv Psixoloji Bərpa Mərkəzinin idman məsələləri üzrə əməkdaşı Əliniyaz Mirzəyev çıxışında tədbirin təşkilində göstərilən dəstəyə görə təşəkkürünü bildirib, belə təşəbbüslərin uşaqların sosial bacarıqlarının inkişafına və fəal həyata qoşulmasına mühüm töhfə verdiyini söyləyib.

Psixiatriya kafedrasının tədris hissə müdiri Nərmin Quliyeva isə turnirə qatılan bütün autizmli uşaqların artıq indidən qalib olduqlarını diqqətə çatdırıb. N.Quliyeva uşaqların təşviş səviyyəsini azaltmaq və onları yarışa daha rahat hazırlamaq məqsədilə tədbirin ikinci hissəsinin qeyri-formal keçiriləcəyini qeyd edib. Bunun ardınca uşaq psixiatrı Pərvin Müslümzadə, klinik psixoloq və koqnitiv-davranış terapiyası mütəxəssisi Günay Süleymanova, eləcə də həkim-rezident, psixiatr dr. Nigar İsgəndərovanın iştirakı ilə stolüstü tennis yarışından öncə autizm spektr pozuntusu olan yeniyetmələrin psixoloji hazırlığı üçün seminar və birgə oyun formatında xüsusi mərhələ keçirilib.

Rəsmi hissənin ardından iştirakçılara yarış qaydaları izah olunub və stolüstü tennis turnirinə start verilib.

Yarış iki qrup üzrə keçirilib və nəticələrə əsasən qaliblər müəyyənləşib. Birinci qrupda Amin Hacıyev I, Sənan Həsənov II, Xəqan Əliyev III, Yunis Babayev isə IV yerə layiq görülüb. İkinci qrup üzrə keçirilən yarışda isə Hüseyin Məmmədov I, Zeynal Mütəllimov II, Onur Ata Aslanov III, Cahid Vəliyev isə IV yeri tutub.

Nəticələr bəlli olduqdan sonra təntənəli təltifolunma mərasimi keçirilib. Qaliblər və fəal iştirakçılar təşkilatçılar tərəfindən medal, diplom və müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

## Tələbə tribunası

# Bu gün öyrənmək, sabah yüksəlmək

**Müasir dövrdə keyfiyyətli tibbi kadrların hazırlanması cəmiyyətin sağlam gələcəyinin əsas təminatlarından biridir. Bu baxımdan Azərbaycan Tibb Universitetinin gənc mütəxəssislərin yetişdirilməsində mühüm rol oynadığını nəzərə alıb, "Tələbə tribunası" rubrikası altında fəal tələbələrlə söhbətlər aparır, onların təhsil həyatı, qazandıqları təcrübə, qarşılaşdıqları çətinliklər və gələcək planları ilə maraqlanırıq.**

Rubrikamızın bu dəfəki qonağı Stomatologiya fakültəsinin III kurs tələbəsi Jalə Zeynallıdır. Orta təhsilini Ucar rayon 4 saylı tam orta məktəbdə "Fərqlənmə" attestatı ilə bitirən Jalə 2023-cü ildə qəbul imtahanlarından yüksək bal toplayaraq ATU-nun Stomatologiya fakültəsinə daxil olub.

O, təhsil müddətində həm elmi fəaliyyətə, həm startap və innovativ layihələrə, həm də sosial və könüllü fəaliyyətlərə böyük maraq göstərib. Birinci kursdan etibarən öz elmi işlərini yazmağa başlayıb və hazırda ağız boşluğu xəstəliklərinin sistem xəstəlikləri ilə əlaqəsi mövzusunda araşdırmalar aparır. Bu istiqamətdə həm elmi işini davam etdirir, həm də startap ideyası üzərində işləyir.

Eyni zamanda, bir çox konfrans və tədbirlərdə tələbə təşkilatçısı kimi fəaliyyət göstərir. Akademik fəaliyyəti çərçivəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri isə "IV Stomatoloji Xeyriyyə Konfransı" çərçivəsində keçirilən klinik keyslər üzrə poster müsabiqəsində qalib gələrək "Best Student" nominasiyasına layiq görülməsidir.

**- Jalə xanım, tibb sahəsini və stomatologiya ixtisasını seçməyinizə hansı amillər təsir göstərib?**

- Uşaqlıqdan həkim olmağı arzulamışam. İnsanlara kömək etmək və həkimliyin yüksək məsuliyyətini daşımaq arzusu məni tibb sahəsinə yönləndirdi. Həmçinin anamın həkim olması bu sahəyə marağımı daha da artırdı.

Stomatologiya üzrə ixtisaslaşmaq arzusu isə uşaq vaxtı stomatoloq qəbuluna getdiyim zaman yaranmışdı. Həmin vaxt oradakı müxtəlif cihazlar, alətlər və stomatoloji kreslo diqqətimi cəlb etmişdi. Stomatologiya həm rəngarəng, həm innovativ, həm də müxtəlif sahələr üzrə bacarıqları birləşdirən peşə sahəsidir. Bu xüsusiyyətlər və şəxsi marağım stomatologiyanı seçməyimdə əsas rol oynayıb.




**- Universitetdə təhsil aldığınız müddətdə qazandığınız ən dəyərli bilik və bacarıqlar hansılardı?**

- Universitetdə qazandığım bilik və bacarıqlar həm nəzəri, həm də praktik sahədədir. Tibbi və stomatoloji biliklərə yiyələnməklə yanaşı, elmi məqalə yazmaq, innovativ startap layihələri həyata keçirmək və tibbi layihələri simulyasiya etmək bacarıqlarını qazanmışam. Eyni zamanda, komanda işi, təşkilatçılıq və liderlik kimi yumşaq bacarıqlar mənim peşəkar formalaşmağımda və gələcək karyeramda böyük rol oynayır.

**- Tədris prosesində nəzəri və praktiki biliklərin balansını necə qiymətləndirirsiniz?**

- İlk kursdan etibarən təməl fənlər həm nəzəri, həm də praktik baxımdan yüksək səviyyədə tədris olunur. İxtisas fənləri isə son müasir dərsliklər və metodlarla balanslı şəkildə aparılır, bu da tədris prosesini daha da zənginləşdirir. Tədris prosesi hər il daha da təkmilləşir və inkişaf edir. Bu yüksək səviyyəli tədris üçün universitet rəhbərliyinə və fakültə dekanlığına təşəkkürümü bildirirəm.

**- İctimai və ya tələbə təşkilatlarında fəaliyyətiniz varmı? Bu fəaliyyət sizə nə qazandırıb?**

- Hal-hazırda fakültə üzrə startap sədri, Tələbə Elmi Cəmiyyətinin Ümumi Şurasının və fakültə üzrə elmi şuranın üzvü kimi fəaliyyət göstərirəm. Həmçinin Stomatologiya THİK təşkilatının komanda heyətində və Enactus təşkilatının Research Departmentində aktiv rol alıram. Bu fəaliyyətlər mənim liderlik, təşkilatçılıq, yaradıcılıq, problem həll etmə, komanda işi və effektiv ünsiyyət bacarıqlarımı formalaşdırıb. Auditoriya qarşısında çıxış və natiqlik qabiliyyətlərim inkişaf edib, eyni zamanda dəyərli peşəkar əlaqələr və dostluqlar qazanmışam.

**- Təhsil müddətində qarşılaşdığınız əsas çətinliklər nələrdir və onların öhdəsindən necə gəlirsiniz?**

- Tibb təhsili tələbələr üçün zamanın səmərəli idarə olunmasını tələb edən intensiv və məsuliyyətli bir prosesdir. Biz yalnız nəzəri biliklər qazanmır, həm də ixtisasımızın tələb etdiyi xüsusi əl bacarıqlarını inkişaf etdirməliyik ki, praktikada lazımınca faydalana bilək. Bu səbəbdən davamlı çalışmaq, planlı hərəkət etmək və öhdəliklərimizə ciddi yanaşmaq zəruridir. Gələcək peşə uğurlarım və pasiyentlərimə fayda vermək arzusu hər yorğunluqda mənə motivasiya verir, məsuliyyətimi daha dərindən anlayıram və nizam-intizamı qorumağa çalışıram. Akademik göstəricilərim I kursdan etibarən yüksək səviyyədədir və inanıram ki, gələcəkdə də onları artıraraq davam edirəcəyəm.

**- Sizcə, müasir dövrdə yaxşı həkimi fərqləndirən əsas xüsusiyyətlər hansılardır?**

- Müasir dövrdə yaxşı həkimi fərqləndirən əsas xüsusiyyətlərdən biri daim yenilənən biliklərə yiyələnməkdir. Bunun üçün həkim mütəmadi olaraq yeni protokolları və elmi araşdırmaları izləməli, beynəlxalq və yerli konfranslarda iştirak etməli və müasir metodlarla pasiyentlərini ən yüksək səviyyədə müalicə etməlidir. Eyni zamanda həkim qayğıkeş, səbrli, məsuliyyətli, dürüst və vicdanlı olmalıdır.

**- Universitetdə təhsilin daha da təkmilləşdirilməsi üçün hansı təklifləriniz olardı? Gələcək peşəkar hədəfləriniz nələrdir?**

- Universitet təhsilinin daha da təkmilləşdirilməsi üçün dərslərdən əlavə tibbi ingilis və rus dillərinin öyrədilməsi, yerli və beynəlxalq konfranslarda aktiv tələbələrin mütəmadi iştirakı faydalı olardı. Cərrahiyyə bacarıqlarını inkişaf etdirmək məqsədilə süni dəri üzərində "workshop"lar təşkil olunmalı, tələbələr arasında yarışlar keçirilməlidir.



Gələcək peşəkar hədəfim üz-çənə cərrahiyyəsi sahəsində ixtisaslaşmaq, nəzəri və praktik bilikləri tətbiq etmək və elmi fəaliyyətlə tibb sahəsinə yenilikçi töhfələr verməkdir.

Özümü 5-10 ildən sonra üz-çənə cərrahiyyəsi üzrə rezidenturanı tamamlayaraq, irsi anomaliyalar və üzün plastik əməliyyatlarını həyata keçirən həkim-cərrah kimi görürəm. Bir çox Q1/Q2 kateqoriyalı jurnallarda elmi məqalələr dərc etdirmək, üz-çənə cərrahiyyəsi ilə bağlı kitablar yazmaq və ATU-nun Üz-çənə cərrahiyyəsi kafedrasında müəllim kimi fəaliyyət göstərmək əsas hədəflərimdir.

**Arif MƏMMƏDLİ**

## Allah rəhmət eləsin!

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın professoru Gülqız xanıma həyat yoldaşı

**Ələkbər müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dosenti Tariyel İsmayılova bacısı

**Sayalı xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0012
Sayı 800